# Zaməddin.



## Xəngələ

***İstiqanlı eloğlum, vəfalı dostum, mehriban qardaşım və qohumum - Tofiq Mansurova - çoxdan borclu olduğu, yarızarafatla yazdığım şeir-töhfəm.***

Dostlar, Zaməddini qoymayın lağa,
Xəngəl qonaqlığı düşər hər çağa,
Bircə sualım var, ay Şamil qağa,
Olormu cərməsi-zadı..., xəngəlin?!

Gəzir el-obada... Xəngəl söhbəti,
Çox tərif demişəm, düzü, xəngələ.
Töhmətdən ağırdı vallah minnəti,
Beləcə..., möhtacdı yüzü - xəngələ.

Sən demə, xəngəlin ağırmış yükü,
Bu sirri açmıram, dərindir kökü,
Ariflər ayırar lap, tükdən-tükü,
Bu yerdə verirəm sözü xəngələ!

Vəsf edib xəngəli çox aşıq-şair,
Yazıb şöhrətinə yüzlərcə şeir,
O cəncəl şair də, həncəri deyir,
Nə qədər səpərlər, duzu - xəngələ?!

Kimlər ki, olurlar xəngəl xəstəsi,
Durna qatarına oxşar... dəstəsi,
Aşıq Elçinindir "Xəngəl" bəstəsi,
Olubdur aludə... sazı - xəngələ!

Düşər qonaqlığı mütləq nahara,
Payızdan - düz qışa, üzü bahara,
Xəngəlin dalınca de - gedək hara?
Meylimin güzarı - gözü - xəngələ!

Dostun vəfalısı inan - Pir olar,
Ustad aşpaz el-obada bir olar,
Adını demirəm pünhan - sirr olar,
Saxlar ocağında gözü - xəngələ!

Görən deyir: - qurd ürəyi yemisən,
"Xəngəli" sən kimə vəsf eyləmisən?
Kimlə xəngəl yeyib, kimə demisən?
Bu bir qəbahətdir - özü xəngələ!

Qurudla - sarımsaq tutsunlar qərar,
Məcməyi sinini, gözlərim arar.
"Ağzı xamırlı"yla olar bərqərar,
Çox əngəl edirlər, düzü - xəngələ!

Qərara aldım ki, çıxım töhmətdən,
Tamam uzaq olum sözdən - qeybətdən,
Borcumu qaytarım, keçib zəhmətdən,
İnan, çox yaraşer, quzu - xəngələ!

Eloğlu, bəri bax, sənə sözüm var,
Bilirsən, nə qədər məndə dözüm var?
Nə qədər xəngəl var, hələ sözüm var,
İndi də verirəm, sözü - xəngələ!

Gözün aydın olsun, ay Tofiq qağa,
Çatdır muştuluğu..., yaxın-uzağa,
Qonaqlıq verirəm, gedək Qazağa...,
Zaməddin qibləsi - üzü xəngələ!
Hələ ki, möhtacdı yüzü - xəngələ!

***15.03.2005***

Kredo.- 2022.- 2 fevral.- S.14.